## “Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı”ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il üzrə hesabatı

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| 1.1. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı”nın təkmilləşdirilməsi, siyahıda olan, lakin tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və “Elektron hökumət” portalına yeni xidmətlərin inteqrasiya edilməsi | 2016-2018 | Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli, 191 nömrəli qərarı ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı”na uyğun olaraq Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilən bütün elektron xidmətlər “Elektron hökumət” portalına inteqrasiya olunmaqla tam fəaliyyət göstərir. Eyni zamanda, sözügedən elektron xidmətlərə dair inzibati reqlamentlərin təkmilləşdirilməsi ilə bağlı müvafiq işlər həyata keçirilmiş, nəticədə, “ASAN” xidmətin Dövlət Statistika Komitəsində elektron xidmətlərin təşkilinin və göstərilməsinin qiymətləndirməsinə əsasən, Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlər yüksək balla qiymətləndirilmişdir. Belə ki, “Rəsmi statistik hesabatların təqdim edilməsi” meyarı üzrə 26 mümkün baldan 24 bal, “Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi” meyarı üzrə 24 mümkün baldan 24 bal, “Statistik nəşrlərin (kitabların) onlayn satışı” meyarı üzrə 24 mümkün baldan 22 bal və “Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi” meyarı üzrə 19 mümkün baldan 19 bal toplanılaraq “əla”, “Statistik məlumatların (göstəricilərin) verilməsi” meyarı üzrə isə 24 mümkün baldan 21 bal toplanılaraq “yaxşı” qiymətləndirilmişdir. |
| 1.3. | “Elektron hökumət” portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin və təqdimatların keçirilməsi | 2016-2018 | Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin “Elektron hökumət” portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin keçirilməsi məqsədi ilə Komitənin internet səhifəsinin “E-xidmətlər” bölməsində yerləşdirilmiş 5 adda elektron xidmət haqqında ətraflı məlumat hazırlanmış və sentyabr ayından internet səhifədə yerləşdirilmişdir. Eyni zamanda, Komitədə keçirilən mətbuat konfranslarında və istifadəçilərlə görüşlərdə Dövlətstatkom tərəfindən göstərilən elektron xidmətlər haqqında geniş məlumat verilmiş, iştirakçıların sualları cavablandırılmışdır. |
| 1.4. | Elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi | 2016-2017 | Statistik vahidlərdən tələb edilən rəsmi sənəd və arayışların sayına, prosedurların sadələşdirilməsi imkanlarına yenidən baxılaraq təhlil aparılmışdır. Statistik vahidlərin Dövlət reyestrinin aktuallaşdırılması üçün statistik vahidlər tərəfindən təqdim edilən bəzi arayışların elektronlaşdırılmasının və yerli statistika orqanlarına gəlmədən prosedurun həyata keçirilməsinin mümkünlüyünü nəzərə alaraq, Komitənin internet səhifəsinin “Rəsmi statistik hesabatların təqdim edilməsi” bölməsinin “Hesabatların elektron formada təqdim edilməsi sistemi”ndə onların fəaliyyətinin müvəqqəti dayandırılması ilə bağlı arayışın skan olunmuş formada elektron təqdim olunması imkanının (funksiyasının) yaradılması istiqamətində zəruri tədbirlər görülür. |
| 2.4. | Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi | 2016-2018 | Komitənin internet səhifəsinin mobil versiyası təkmilləşdirilmiş və statistik məlumatlar mütəmadi olaraq yenilənmişdir. Eyni zamanda, 2016-cı il 22 iyun tarixindən etibarən “Facebook” sosial şəbəkəsində Dövlət Statistika Komitəsinin səhifəsi yaradılmış və səhifənin aktiv fəaliyyəti təmin edilmişdir. Səhifənin 20.12.2016-cı il tarixinə 1100 nəfərə yaxın izləyicisi olmuşdur. |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| 4.1.1. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi | 2016-2018 | İl ərzində Dövlət Statistika Komitəsinə 21 qeyri-hökumət təşkilatından statistik dəstəklə bağlı müraciət daxil olmuş və hər biri müvafiq qaydada cavablandırılmışdır. |
| 4.1.3. | "Açıq hökumət tərəfdaşlığı" vətəndaş cəmiyyəti platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi | 2016-cı il | "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun Avropa Statistikləri Konfransının 64-cü plenar sessiyasında qəbul edilmiş və əsasən Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üçün nəzərdə tutulmuş rəsmi statistika haqqında model qanununa uyğunlaşdırılması üçün hazırlanan qanun layihəsi 2017-ci ildə Statistika Şurasının və digər ictimai təşkilatların müzakirəsinə təqdim ediləcəkdir. |
| 4.2.1. | İctimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin edilməsi | 2016-2018 | Nazirlər Kabinetinin 15.09.2016-cı il tarixli, 346 nömrəli qərarı ilə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil edilməklə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibi təsdiq edilmiş, 17.10.2016-cı il tarixində Şuranın yeni tərkibdə keçirilmiş ilk iclasında "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi" və "2017-ci il üçün statistik işlər proqramının layihəsi" ilə bağlı məsələlər müzakirəyə çıxarılmışdır. |
| 4.2.2. | İctimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi | 2016-2018 | Statistika Şurasının yeni tərkibi və şuranın ilk iclası ilə bağlı məlumatlar Dövlət Statistika Komitəsinin internet səhifəsində yerləşdirilmişdir. |
| 5.6. | Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi | 2016-2018 | 2016-cı ildə Dövlət Statistika Komitəsində 9 tender proseduru keçirilmiş və qanunvericiliyə uyğun olaraq, hər biri ilə bağlı zəruri məlumatlar müvafiq qaydada İqtisadiyyat Nazirliyinin yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin internet səhifəsində yerləşdirilmiş və "Respublika" qəzetində dərc edilmişdir. |
| 8.6. | "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2016-2018 | Dövlət Statistika Komitəsində keyfiyyətin idarə edilməsi İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq qurulmuşdur. Rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində növbəti uyğunluq sertifikatının əldə olunması istiqamətində "SGS Azeri LTD" audit şirkəti ilə birlikdə müvafiq tədbirlər həyata keçirilir. Təşkilati işlərin təkmilləşdirilməsi və cari işlərə operativ yanaşmanın təmin edilməsi, qarşıda duran vəzifələrin vaxtında və operativ icra edilməsi, statistik vahidlərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi və onlarla mütəmadi olaraq təlimatı müşavirələrin keçirilməsi, vətəndaşların müraciətlərinin vaxtında cavablandırılması, əməkdaşların etik davranış qaydalarına riayət edilməsi və onların bilik və bacarıqlarının artırılması üçün zəruri tədbirlər görülmüş, sözügedən mövzular üzrə Komitə aparatının və yerli statistika orqanlarının əməkdaşları üçün tədris-təlim kursları təşkil edilmişdir. |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| 8.7. | Sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi | 2016-2018 | Sahibkarların qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin internet səhifəsində aparılan "Sahibkar üçün 7 sual" rəy sorğusunun yeni variantı hazırlanmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir. Hazırda sorğunun nəticələrinin ümumiləşdirilməsi üzrə işlər davam etdirilir və ilin yekunu üzrə respondentlərin cavabları təhlil ediləcəkdir. |
| 8.9. | İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi | 2016-2018 | Komitə tərəfindən həyata keçirilən elektron xidmətlər, beynəlxalq və yerli təşkilatlarla görüşlər, statistika üzrə yenilənən metodologiyalar barədə məlumatlar internet səhifədə yerləşdirilmiş, "Regionların statistik portreti" xəritəsi və mətbu məlumatlara abunə olmaq istəyənlər üçün internet səhifədə yeni pəncərələr yaradılmışdır. Eyni zamanda, 2016-cı ilin ikinci yarısında statistik məlumat istifadəçiləri ilə 10 seminar təşkil edilmiş və bu seminarlarda 181 nəfər iştirak etmişdir. Dövlət Statistika Komitəsinin və Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin mütəxəssisləri iqtisadi sahədə həyata keçirilən islahatlar, statistika sahəsində baş verən yeniliklər haqqında kütləvi informasiya vasitələrində məqalələrlə çıxış etmiş, o cümlədən "Statistika xəbərləri" elmi-praktik jurnalında statistika sisteminin əməkdaşları tərəfindən 13 məqalə dərc etdirilmişdir. |
| 10.2. | Müxtəlif hədəf qrupları, o cümlədən dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış üzrə təhsil-tədris proqramlarının hazırlanması, təlim və treninqlərin keçirilməsi, belə təşəbbüslərin dəstəklənməsi | 2016-2018 | İşçilərin bilik və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə etik davranış, korrupsiyaya qarşı mübarizə üzrə məsələlər daxil edilməklə, təsdiq edilmiş təlim proqramı əsasında Dövlət Statistika Komitəsinin işçiləri üçün təlimlər təşkil edilmiş və bu təlimlərdə 291 nəfər iştirak etmişdir. |
| 10.4. | Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində sosial çarxların, bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və paylanması | 2016-2018 | Sahibkarların qüvvədə olan normativ hüquqi aktlar barədə məlumatlandırılması məqsədilə "Sahibkar nəyi bilməlidir" kitabçasının yeni nəşri hazırlanmış və elektron versiyası Komitənin internet səhifəsində yerləşdirilmişdir. |
| 11.1. | Fəaliyyət Planının icrasının monitorinqi prosesinə informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlərin görülməsi, dövlət orqanları tərəfindən Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasına məsul şəxslərin müəyyən edilməsi | 2016-2018 | Kollegiyanın qərarı ilə məsul şəxslər müəyyən edilməklə tədbirlər planı təsdiq edilmiş, Fəaliyyət Planı üzrə Dövlət Statistika Komitəsində icrası nəzərdə tutulmuş tapşırıqların monitorinqi prosesinə Komitədə hazırda tətbiq olunan "Sənəd dövriyyəsi-kargüzarlıq" (IRMbusinessDoc) proqram təminatı vasitəsilə nəzarət olunması planlaşdırılmışdır. Bu proqram təminatı vasitəsilə "Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrlə bağlı Dövlət Statistika Komitəsində icrası nəzərdə tutulmuş bütün tapşırıqların elektron informasiya məlumat bazasına daxil edilməsi, onların icra müddətlərinə elektron nəzarət, icra olunmuş məsələlərin elektron şəkildə arxivləşdirilməsi və çapı ilə bağlı texniki alətlər müvafiq proqram modullarda nəzərdə tutulmuşdur. |
| 11.2. | Dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili | 2016-2018 | Hesabat dövründə statistika sistemində korrupsiya halları aşkar edilmədiyindən, hüquq mühafizə orqanlarına məlumat verilməsinə zərurət yaranmamışdır. |
| 11.5. | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə | 2016-2018 | 2016-cı ildə Dövlət Statistika Komitəsində məlumat istifadəçiləri ilə kənd təsərrüfatı, əmək, qiymət, sənaye, tikinti, əhali, ticarət, milli hesablar və makroiqtisadi göstəricilər, xidmət, sosial, |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi | | energetika, ətraf mühit, həyat keyfiyyəti statistikası, informasiya və ictimaiyyətlə əlaqələr sahəsində 12 seminar keçirilmiş və bu seminarlarda aidiyyəti təşkilatlardan 166 nəfər iştirak etmişdir. Bunlardan əlavə, vətəndaş cəmiyyəti institutlarının cari statistika ilə məlumatlandırılması məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış 67 adda mətbu-buraxılış Komitənin internet səhifəsində yerləşdirilmişdir. |
| 11.6. | Açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyəti və qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğuların, araşdırmaların keçirilməsi və nəticələrinin elan edilməsi | 2016-2018 | Etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər həyata keçirilmiş, etik davranış qaydalarının pozulması hallarına yol verən 6 nəfər dövlət qulluqçusuna qarşı intizam tənbeh tədbiri tətbiq edilmişdir. Tədbirlərin icra vəziyyəti barədə illik hesabat və müvafiq məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmiş, istifadəçilərin statistik məlumatlarla təmin olunması barədə internet səhifədə məmnunluq sorğusu keçirilmiş və nəticələri təhlil edilmişdir. |